# İMİŞLİ: Bu günü gözəldir, sabahı daha gözəl olacaq

***Azərbaycanın dinamik sosial-iqtisadi inkişafını təkcə paytaxt Bakıda deyil, demək olar ki, bütün rayon və şəhərlərdə müşahidə etmək mümkündür. Rayonlarımız hər gün gözümüzün önündə dəyişir, yeniləşir, böyüyür. Bu sırada aran rayonlarımızdan olan İmişlinin də öz yeri var.***





Rayonda sənaye və kənd təsərrüfatının, sosial sahənin, təhsil və mədəniyyətin inkişafı üçün münbit şərait yaradılıb. Bütün bunlar, şübhəsiz ki, regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirən Prezident İlham Əliyevin qəbul etdiyi regional inkişaf proqramlarının uğurlu icrası sayəsində mümkün olub. Son illərdə Prezidentin tapşırığı əsasında istər Bakıda, istərsə də rayonlarda, o cümlədən İmişlidə insanlara qayğı və diqqət daha da artıb.

2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və Azərbaycan Prezidentinin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda qarşıya qoyduğu mühüm vəzifələrlə bağlı İmişli Rayon İcra Hakimiyyətində keçirilmiş hesabat yığıncağında da bu barədə danışıldı. RİH başçısı Vilyam Hacıyev 2016-cı ildə görülən işlərə qiymət verərək bildirdi ki, il ərzində İmişli rayonunun sosial-iqtisadi inkişafında yaxşı nəticələr əldə olunmuş, iqtisadiyyatın əsas sahələri üzrə 552 milyon 699100 manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir. Bunun 337.643.000 manatı və ya 61 faizi sənaye, 112.500.500 manatı və ya 20,3 faizi kənd təsərrüfatı, 37.564.300 manatı və ya 6,9 faizi tikinti, 56.030.800 manatı və 10,1 faizi ticarət və iaşə, 8.401.400 manatı və ya 1,6 faizi nəqliyyat, 559.100 manatı və ya 0,1 faizi rabitə müəssisələrinin payına düşür.

Bununla yanaşı, rayonda abadlıq və quruculuq işləri də diqqətdən kənarda qalmayıb. Heydər Əliyev prospekti, S.Fətəliyev, M.Müşviq, H.Aslanov və Q.İsmayılzadə küçələri təmir olunaraq asfalt örtük salınmışdır. Ümumi istifadədə olan avtomobil yollarının saxlanması və cari təmiri sahəsində 871.2 min manatlıq iş həcmi yerinə yetirilmişdir. İmişli dolama yolunda 8 kilometr avtomobil yolunun alt qatına asfalt beton qoyulmuş, şəhərə giriş yolunun 0-7 kilometr sahəsində əsaslı təmir işləri aparılmışdır. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İmişli şəhərində 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binasında tikinti işləri tamamlanmaq üzrədir. Həmçinin rayonda bu təbəqədən olan insanlar üçün növbəti, ikinci 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binasının tikintisi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsinin, "ASAN Xidmət" Mərkəzinin inzibati binalarının tikintisi nəzərdə tutulmuş, "Azərişıq" ASC-nin İmişli Rayon Elektrik Şəbəkəsinin isə inzibati binasının tikintisinə başlanmışdır.

İmişli əsasən aqrar rayon olsa da, sənaye də inkişaf edir. Son illər rayonda emal sənayesinin inkişafı üçün bir sıra işlər görülmüş, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin kəllə qənd, qarışıq yem, bitki yağları, spirt emalı, çuğundur yem qurutma zavodları, Bəhrəmtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Qaragüvəndikli kəndində damazlıq yumurta istehsal edən "Araz damazlıq quşçuluq" MMC, İmişli Brolyer və "Araz" konservləşdirilmiş şirələr və konyak zavodu istifadəyə verilmişdir. 2016-cı ildə 337.643.000 manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövri ilə müqayisədə 2,7 dəfə çox olmuşdur. Bu artım əsasən Şəkər Zavodunun istehsal rejimində işləməsi ilə əlaqədar olmuşdur. İstehsal olunan sənaye məhsullarının 95,7 faizi qeyri-dövlət sektorunun payına düşür. Rayonda iri neft sənaye müəssisəsi olan Aran OİL Operating Companiy 9,6 min ton neft məhsulu istehsal etmişdir. İmişli Şəkər Zavodu 391.845 ton şəkər tozu istehsal etmiş, o cümlədən başqa sifarişçiyə məxsus xammaldan 46100 ton şəkər tozu emal etmişdir.

İmişli iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Son illərdə pambıqçılıq və taxılçılıq əsas sahə kimi qalmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə 2017-ci ildə 120 min hektar torpaq sahəsində pambıq əkilməsi ilə bağlı tapşırıq vermişdir. 2016-cı ildə rayonda 5051 hektarda pambıq əkilmiş və 10 min tondan yuxarı məhsul toplanmışdır. 2017-ci ildə isə İmişlidə 10 min hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur.

Başçının sözlərinə görə, ötən il heyvandarlıq və quşçuluq sahələrinin də inkişafı təmin edilmiş, mal-qaranın sayı 94658 başa, qoyunların sayı 256721 başa, quşların sayı isə 1036039 başa çatmış, əvvəlki illə müqayisədə iribuynuzlu mal-qara 728 baş, qoyunlar 3659 baş artmışdır. Ət istehsalı (diri çəkidə) 8438 ton, süd istehsalı 49555,2 ton, yumurta istehsalı isə 100730 min ədəd olmuşdur. 1 yanvar 2017-ci ilə qədər 10820 hektar sahədə buğda, 6186 hektar sahədə arpa, 232 hektar sahədə kartof, 326 hektar sahədə bostan, 206 hektar sahədə tərəvəz, 165 hektar sahədə dən qarğıdalı, 211 hektar sahədə şəkər çuğunduru əkilmişdir. 18674 ton arpa, 36788 ton buğda istehsal edilmiş, məhsuldarlıq 35,5 sentner olmuşdur. Həmçinin, 2886 ton kartof, 2637 ton tərəvəz, 956 ton qarğıdalı, 6715 ton şəkər çuğunduru, 10173 ton pambıq tədarük edilmişdir. Bu sahədə işlər davam etdirilir.

İmişli rayonunda 5 hektar sahədə müasir standartlara cavab verən istixananın tikintisinə başlanılmışdır. 2 hektar sahədəki müasir standartlara cavab verən istixana isə istifadəyə verilmişdir. Rayonda taxılçılığın və pambıqçılığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması məqsədilə daxili və xarici investorları cəlb etməklə dövlət fondu torpaqlarından 10 min hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulmuş, həmçinin kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün "MKT" MMC-yə 3813 hektar torpaq sahəsi verilmişdir. Bundan əlavə, 10572 hektar torpaq sahəsinin təyinatının dəyişdirilməsi məqsədilə əlaqədar orqanlara müraciət olunmuşdur.

Dövlət proqramlarının icrası nəticəsində İmişlidə 2016-cı ildə 757 iş yeri və ümumi isə 23228 iş yeri açılmışdır. Rayon əhalisinin məşğulluğunun təmin olunması ilə bağlı müvafiq tədbirlər həyata keçirilmiş, qəbul olunmuş məşğulluq strategiyasından irəli gələn məsələlərin həlli istiqamətində bundan sonra da işlər görüləcəkdir. Ötən il 1320 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir.

İstehlakçıların fasiləsiz və etibarlı elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədilə tədbirlər görülmüş, xətlərdə yenidənqurma işləri aparılmış, istismar müddətini başa vurmuş dayaq və naqillər yenisi ilə əvəz edilmiş, yeni güc mərkəzləri yaradılmışdır. Enerji təchizatında problemlərin olduğu ərazilərdə 57 ədəd yeni transformator quraşdırılmışdır. Hazırda İmişli Elektrik Şəbəkəsinin Məzrəli və Bəcirəvan kəndlərində 10-0,4 kv-luq şəbəkələrdə yenidənqurma işləri aparılır, "Bəhrəmtəpə" və "Yeni Bəhrəmtəpə" yarımstansiyalarının yenidən qurulması planlaşdırılır.

Regional Qaz İstismarı İdarəsinin İmişli xidmət sahəsi tərəfindən rayonda 5282 yeni fərdi ev, 10 obyekt qazlaşdırılaraq istismara təhvil verilmişdir. Beləliklə, 30 sentyabr 2016-cı ilə təbii qaz istehlakçıların ümumi sayı əhali sektoru üzrə 17024 nəfər təşkil etmiş, 221 nəfərə yeni "smart" tipli qaz sayğacı quraşdırılmışdır. Qeyri-əhali sektoru üzrə isə abonent sayı 88 olmuşdur. Rayonun 30 yaşayış məntəqəsinin tam qazlaşdırılması təmin edilmişdir. Hazırda Çahar, Gövhərli, Xubyarlı, Məzrəli, Çaxırlı, Mirili, Qaravəlili kəndlərində qaz çəkilişi davam etdirilir.

Kəndlərin su təchizatını yaxşılaşdırmaq üçün rayonun 38 kəndində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. 8 kənddə belə qurğuların quraşdırılması planlaşdırılır. İmişli şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması ilə əlaqədar "Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə" çərçivəsində tikinti işləri 2011-ci ilin sentyabr ayından həyata keçirilmişdir. Hazırda İmişli şəhərinin bütün küçə və məhəllələri içməli su ilə təmin olunmuşdur.

Təhsil sahəsinin inkişafı daim diqqət mərkəzində saxlanılır. Son 10 ildə rayonun ümumtəhsil məktəblərinin maddi-texniki bazası yaxşılaşmış, 40-a yaxın məktəbin binası yenidən inşa edilmiş, yaxud əsaslı təmir olunmuşdur. Ötən il Məzrəli və Mürsəlli kənd tam orta məktəblərində əsaslı təmir işləri aparılmış, şəhər 2 saylı tam orta məktəbin binasının dam örtüyü dəyişdirilmişdir. Qızılkənd tam orta məktəb binasının tikintisi nəzərdə tutulmuşdur. Dövlətimizin təhsilə olan qayğısının nəticəsidir ki, rayon üzrə ali təhsil müəssisələrinə qəbul olunanların sayı hər il əvvəlki illə müqayisədə daha da artır. 2016-cı ildə 248 nəfər ali məktəblərə qəbul olunmuşdur ki, bu, əvvəlki illə müqayisədə 22 nəfər artıqdır.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili və hərbi-vətənpərvərlik tərbiyəsi, onların müxtəlif idman növləri ilə məşğul olmaları üçün şərait yaradılması, gənclərin layiqli vətəndaş kimi formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər rayon icra hakimiyyətinin diqqət mərkəzində saxlanılmışdır. Rayon əhalisinin 32 faizini gənclər təşkil edir ki, onların da istifadəsində 132 idman qurğusu, üç bədən tərbiyəsi-sağlamlıq mərkəzi, müasir tələblərə cavab verən 8500 yerlik futbol stadionu, bir Olimpiya İdman Kompleksi, gənclər mərkəzi, uşaq gənclər şahmat məktəbi və digər mərkəzlər vardır.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***